## HƏYAT VƏ YARADICILIĞI

İsa Həbibbəyli 16 oktyabr 1949-cu ildə Naxçıvan MSSR-in Şərur rayonunun Danzik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının dil-ədəbiyyat fakültəsini Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə 1971-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir.

1971-ci ildən Şərur rayonu, Danzik kənd orta məktəbində müəllim, 1975-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim, dosent, elmi işlər üzrə prorektor (1991–1996), Tələbə Elmi Cəmiyyətinin sədri (1968–1971, 1975–1990), 1996-cı ildən 2013-cü ilə qədər isə Naxçıvan Dövlət Universitetinin rektoru vəzifələrində çalışmışdır.

2013-cü ilin aprel ayından 2019-cu ilin oktyabr ayına qədər Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 2019–2020-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, 2020–2022-ci illərdə yenidən vitse-prezidenti seçilmişdir. 2022-ci ilin oktyabr ayından isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidentidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür. Birinci və ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş, Beynəlxalq münasibətlər və insan hüquqları komissiyasına rəhbərlik etmişdir (1998–2005).

III, IV və V çağırış Azərbaycan Milli Məclisinin Elm və təhsil komitəsinin sədri olmuşdur. VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. AR Milli Məclisinin Elm və təhsil komitəsinin sədri (2015–2020) kimi "Elm haqqında" (2016), "Məktəbəqədər təhsil haqqında" (2017), "Peşə təhsili haqqında" (2018), "Ümumi təhsil haqqında" (2019) qanunlarının layihələrini hazırlamışdır. Milli Məclisin Toponimiya Komissiyasının sədridir (2015). Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsinin layihələrinin (2014, 2023), "Elm məbədi" filminin, "Akademiya marşı"nın müəllifi, "Fizika və lirika" layihəsinin, AMEA-da Təsviri və tətbiqi sənət sərgilərinin təşkilatçısıdır. YAP Siyasi Şurasının üzvü olmuşdur (2013–2021). Azərbaycan Milli Elmlər Akademiyasının "Məruzələr", "Elm və həyat", AMEA Humanitar Elmlər Bölməsinin "Filologiya və sənətşünaslıq", Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Poetika.izm", "Müqayisəli ədəbiyyatşünaslıq" jurnallarının baş redaktorudur.

1996-cı ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür.

Ədəbi cərəyanlar, ədəbi növlər və janrlar üzrə tədqiqatlar aparmış, ilk dəfə satiranın ədəbi növ, erkən realizm, postmodernizm, magik realizm, akademizmin isə ədəbi cərəyan olduğunu müəyyən etmişdir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında təkmetodlu ədəbiyyatdan çoxmetodlu bədii metoda keçid prosesinin baş verdiyini irəli sürmüşdür. Azərbaycançılıq, Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi və mollanəsrəddinçilik konsepsiyalarını hazırlamışdır. XIX–XXI əsrlər Azərbaycan ədəbiyyatı tarixinə dair çoxsaylı tədqiqatları vardır. Cəlil Məmmədquluzadənin irsini tədqiq etmiş, ilk dəfə olaraq nəsil səcərəsini tərtib etmişdir. Ədibin 4 cildlik "Əsərləri"ni Bakıda (2004), 2 cildlik "Seçilmiş əsərləri"ni Naxçıvanda (2009), əsərlərindən seçmələri Rusiya (1999), Pakistan (2004), Misir Ərəb Respublikası (2008), Macarıstan (2011), Litva (2017), Bolqarıstan, Özbəkistan və Tacikistanda (2019) nəşr etdirmişdir. Mirzə Cəlilin nəslinin Fransa və İrandakı davamçılarını tapmış (1992–1998), Polşadakı varislərinin Bakıya səfərini təşkil etmişdir (16–21 noyabr 2019). Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi,

Məhəmməd ağa Şahtaxtlı, Məmməd Səid Ordubadi, Eynulla Sultanov, Məmməd Cəfər Cəfərov və Ələkbər Qəribin naməlum əsərlərini nəşr etdirmişdir.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasında "Ədəbiyyat nəzəriyyəsi" ixtisası üzrə təhsil almışdır (1973–1977). "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda namizədlik (57.15.01 — Ədəbiyyat nəzəriyyəsi) (1980), "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (5716.01 — Azərbaycan ədəbiyyatı tarixi;) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1996). Filologiya elmləri doktoru, professordur (1997).

2001-ci ildə AMEA-nın müxbir üzvü (ixtisasın adı: Azərbaycan ədəbiyyatı), 2003-cü ildə isə AMEA-nın həqiqi üzvü (ixtisasın adı: Ədəbiyyatşünaslıq) seçilmişdir.

89 kitabın, 1428 məqalənin, 212 xaricdə çap olunmuş elmi məqalənin müəllifidir. 39 fəlsəfə doktoru, 7 elmlər doktorunun elmi rəhbəri olmuşdur.

Kitabları: 14 monoqrafiyanın, 1 orta məktəb dərsliyinin, 2 dərs vəsaitinin, 28 broşürnın, 21 tərtib kitabının müəllifidir.

Əsərləri Azərbaycan dilindən başqa ingilis, fransız, rus, türk, ərəb, fars, urdu, bolqar, macar, litva və b. dillərdə çap olunmuşdur.

Tədqiqat sahəsi Azərbaycan ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsidir. ABŞ, İngiltərə, Çin, Rusiya, Fransa, Türkiyə, Almaniya, Polşa, Cənubi Koreya, İspaniya, İran, İraq, Bolqarıstan, Avstriya, Litva, Misir Ərəb Respublikası, Tunis, Ukrayna, Pakistan, Macarıstan, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Türkmənistan, Monqolustan, Qırğızıstan, Misir və başqa ölkələrdə rəsmi səfərlərdə olmuş, beynəlxalq simpozium, qurultay və konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

***Üzvü olduğu xarici ölkə Akademiyaları***

1. Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun üzvüdür (1999).
2. Dünya Azərbaycanlıların Əlaqələndirmə Şurasının üzvüdür (2001).
3. BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvüdür (2006).
4. Sankt-Peterburq Universitetinin fəxri doktorudur (2015).
5. Cənubi Rusiya Universitetinin fəxri doktorudur (2017).
6. Beynəlxalq Çingiz Aytmatov Akademiyasının həqiqi üzvüdür (2018).
7. Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin fəxri doktorudur (2021).
8. Qazaxıstan Elmlər Akademiyasının fəxri üzvü (2023).
9. Çin Xalq Respublikasının Honq-Konq Akademiyasının həqiqi üzvüdür (2023).
10. Gürcüstan Milli Elmlər Akademiyası Ümumi yığıncağının 10 iyul 2024-cü il tarixli qərarı ilə bu qurumun xarici üzvü seçilib.

***Fəxri professor olduğu universitetlər***

16 iyun 2023-cü ildə Özbəkistanın Kokand Dövlət Pedaqoji İnstitutunun "Fəxri professoru" seçilib. Diplomu Kokand Dövlət Pedaqoji İnstitutunun rektoru, professor Dilnoza Xocayeva təqdim edib.

1. Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin fəxri professorudur.
2. Cənubi Rusiya Universitetinin fəxri doktorudur.

***Çalışdığı vəzifələr***

1. Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru (1991–1996);
2. Naxçıvan Dövlət Universitetinin rektoru (1996–2013);
3. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti (2013-cü ildən-2019-cu ilə qədər);
4. Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti (2019–2020-ci illər);
5. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti (2020–2022-ci illər);
6. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru (2013-cü ildən);
7. Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti sədrinin müavini (2018-ci ildən)
8. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (2022-ci il 25 oktyabrdan);